Ədalət.- 2022.- 30 aprel. S. 9.



***FƏZAİL İSMAYIL BÖYÜKKİŞİ***

## GÜLÜM

*Bu nə görkəm, bu nə qamət,*
*Seçilmirsən güldən gülüm.*
*Vallah səni qaçırardım,*
*Utanmasam eldən gülüm.*

*Kimə açım yar dərdimi?!-*
*Xəyal, bəhrə bar verdimi?*
*Məcnunluq şad xəbərdimi?*
*Yığılmıram çöldən gülüm.*

*Çoxalsa da gəlib-gedən,*
*Az tapılar qəlbən sevən,*
*Öz insafın o sən, bu mən,*
*Məhəbbəti böl tən, gülüm.*

## SONAM

*Varlığıma qor doldurub,*
*Nə qaçırsan yana sonam,*
*Gizlin-gizlin can qovurub,*
*Salma məni qana, sonam.*

*Danışıram, naz satırsan,*
*Danışmıram söz atırsan,*
*Ürəyimi oynadırsan,*
*Qorxmursanmı sına, sonam?!*

*Dilbər mindir, sənəm yüzdür,*
*Od püskürən sinəm közdür,*
*Bilirsənki sözüm sözdür,*
*Övladıma ana sonam.*

## GƏZƏRSƏN MƏNİ

*Yamanca keçmişəm dünya cənginə,*
*Yaxana əl çatmaz, çırpam əngінə,*
*Quyruq bulayansan daim zənginə,*
*Yoxsulam asarsan, kəsərsən məni.*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Məsum bir körpə tək boynuna düşdüm,*
*Göz açdım cəhənnəm qoynuna düşdüm,*
*Olmazın küy-kələk oynuna düşdüm.*
*Doğruyam, tapdayıb əzərsən məni.*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Xoşuma gəlməyən başıma gələr,*
*Nə bəlan varsa da qarşıma gələr,*
*Axırda kəfənlə bürmələr, bələr,*
*Çox sağ ol, nə gözəl bəzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Verdin kef-damağı, verdin əclafa,*
*Duymadın mən kiməm kim, ay binəva,*
*Allahlı bəndəyəm çəkirəm cəfa,*
*Bərk sıxır məngənəm, üzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Səni dağıdandı dostun, həmdəmin,*
*Özüsən usdadın, daha nə qəmin...*
*Dərdinə loğmanam, mənəm məlhəmin,*
*Yarana, xorana süzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Fəzail sel kimi coşar, çağlayar,*
*Səni murdarlardan yuyar, carlayar,*
*Sonra günəşdən də ötə parlayar,*
*Sanarsan ən nurlu əsər sən məni!*
*Öldürüb çıraqla gəzərsən məni.*

## BƏS HARDADI?

*Hey baxıram yola, izə...*
*İsmi-pünhan bəs hardadı?*
*Daşa dönnəm dözə-dözə,*
*İsmi-pünhan bəs hardadı?*

*Bədirlənmiş aydı mənə,*
*Tanrı verən paydı mənə,*
*Axı necə qıydı mənə,*
*İsmi-pünhan bəs hardadı?*

*Tale mənə qəsd elədi,*
*Həm şikəst, həm məst elədi,*
*Ağlım, huşum dəstələdi,*
*İsmi-pünhan bəs hardadı?*

## GÜLƏN VƏDƏ...

*Saflıq oldu ilk diləyim,*
*Bu dünyaya gələndə də,*
*Arxayın ol ay ürəyim,*
*Saf ölərəm, öləndə də.*

*Kim nə deyir desin mənə,*
*Yaşamaram sinə-sinə,*
*Saf eşqimi yarla yenə,*
*Tən bölərəm, böləndə də.*

*Çox sevdiyim bir sözüm var,*
*Körpələrə qibtə apar,*
*Qocalar da könlü oxşar,*
*Körpə kimi gülən vədə.*

## MƏNİ...

*Qalxdım uca dağ başına,*
*Salamladı güllər məni.*
*Düşdüm leysan yağışına,*
*Aparmadı sellər məni.*

*Nə ipəyi bezə verdim,*
*Nə eşqimi üzə verdim,*
*Ömrü-günü sözə verdim,*
*İtirmədi illər məni.*

*Hava çalmaz saz qırığı,*
*İşə keçməz söz sırığı,*
*Fəzailəm haqq aşığı,*
*Yadda saxlar ellər məni.*